**Yunanıstan Respublikasının Afina Universiteti**
**2020/21-ci tədris ili üçün təqaüd proqramı elan edir**

**Ümumi məlumat:** Yunanıstan Respublikasının Afina Universiteti 2020/21-ci il akademik ili çərçivəsində “Qədim Yunanıstan arxeologiyası, tarixi və ədəbiyyatı” üzrə bakalavriat səviyyəsi üzrə təqaüdlü təhsil almaq imkanı əldə etmək istəyənlər üçün təqaüd proqramı elan edir.

| | |
|---|---|
| **Təhsil səviyyəsi:** | bakalavriat |
| **Kvota:** | 6 yer (ümümi olaraq bu təqaüd proqramı üçün ayrılan yerlərin sayı) |
| **Yaş həddi:** | 27 yaşa qədər |
| **Tədris dili:** | ingilis |
| **Təhsil müddəti:** | 4 il |
| **İxtisas:** | qədim yunan arxeologiyası, tarixi və ədəbiyyatı |
| **Müraciət üçün son tarix:** | **30.06.2020** |
| **Maliyyələşmə:** | 10.000 avro (ilk tədris ili üçün birdəfəlik ödənir) |

Qeyd: Növbəti akademik illər üçün təqaüd qazanmaq imkanı tələbənin ümumi orta müvəffəqiyyət göstəricisi ( min 85) və fənlərə görə qazandığı kredit sayından (min 60) asılıdır. Təhsil haqqı, yataqxana xərci və digər xərclər ona ödənilmiş birdəfəlik vəsait üzrə tələbələrin özləri tərəfindən qarşılanır.

**Seçim meyarları və tələb olunan sənədlər:**

- namizədin orta attestat balı 4.5 (90%) olmalıdır;
- daha çox üstünlük ilk dəfə bakalavr üçün müraciət edən namizədlərə verilir;
- motivasiya məktubu (proqrama dair)
- CV
- məktəbdənkənar fəaliyyətlər, mükafatlar, təltiflər
- tövsiyə məktubu
- ingilis dili biliyinə dair sertifikat ( TOEFL- min 88; IELST min 6.5)
- səfirlik tərəfindən tələbə vizasının alınması;
- şəxsiyyəti təsdiq edən sənədin surəti;
- ümumvətəndaş pasportunun surəti;
- sağlamlıq haqqında arayış
- diplom surəti;
- akademik transcript (əgər namizəd hazırda təhsil alırsa ən son semestrin transkriptini təqdim etməlidir)

*Qeyd: Yuxarıda göstərilən sənədləri  ingilis dilinə notariat qaydada tərcümə və təsdiq edərək surətlərini (tələb olunanlar) əsilləri ilə birlikdə Yunanıstanın Bakıdakı səfirliyinə təqdim etmək lazımdır.

Təqaüd proqramı haqqında ətraflı məlumatı https://baag.uoa.gr/ internet səhifəsindən əldə etmək mümkündür.

**Əlaqə:** info@baag.uoa.gr